2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 15 saylı müraciət üzrə

**RƏYİ**

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 119 saylı Ağdam kənd seçki dairəsindən Üçoğlan bələdiyyəsi üzvlüyünə namizəd Abıyev Babaxan Məhəmməd oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) daxil olmuş 31 yanvar 2025-ci il tarixli 15 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılma aparılmış, bu barədə müvafiq rəy verilmişdir.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqları izah edilmişdir. O, Komissiyanın iclasında iştirak etmək hüququndan istifadə etməmişdir.

Namizəd B.M.Abıyev tərəfindən mübahisələndirdiyi seçki məntəqələri üzrə araşdırmaya hər hansı bir material təqdim edilməmişdir.

Müəyyən edilmişdir ki, seçilməsi mübahisələndirilən qeydə alınmış namizəd A.A.Əliyev 119 saylı Ağdam kənd seçki dairəsinin ərazisində daimi yaşayır və namizədliyi Seçki Məcəlləsinin 53-cü və 212-ci maddələrinə uyğun irəli sürülmüş və qeydə alınmışdır.

Seçki Məcəlləsinin 212-ci maddəsinə görə seçkilərdə iştirak etmək hüququna malik olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər. Həmin Məcəllənin 210.1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

Mərkəzi Seçki Komissiyasında aparılmış tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini, səslərin hesablanmasını və protokolların tərtib edilməsini müşahidə etmiş müşahidəçilər, qeydə alınmış, lakin seçilməmiş digər namizədlər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, tərəfindən verilmiş izahatlarla müraciətdə iddia olunan pozuntular öz təsdiqini tapmamışdır.

Araşdırma nəticəsində belə nəticəyə gəlinmişdir ki, nəticələri mübahisələndirilən seçki məntəqələrində səsvermə günü bütün seçki hərəkətləri Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada keçirilmişdir.

Beləliklə, araşdırma ilə namizəd B.M.Abıyevin müraciətində iddia etdiyi qanun pozuntuları öz təsdiqini tapmadığından müraciətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir. Bununlada müraciət əsassız olduğundan təmin edilməməlidir.

Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 210.1-ci və 212-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 119 saylı Ağdam kənd seçki dairəsindən Üçoğlan bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Abıyev Babaxan Məhəmməd oğlunun 2025-ci il 31 yanvar tarixli 15 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                                    Tofiq Həsənov